*Global Spectrum of Research and Humanities*
*ISSN: 3007-9136*
*Vol. 2 No. 5 (2025): Winter*

# Elmi kadrlarin hazirlanmasinda Naxçivanli dilçilərin rolu (prof. Sədaqət Həsənovanin elmi rəhbərliyi)

[1] **Ganira Asgerova**
https://doi.org/10.69760/gsrh.0250205016

**Xülasə:**
Dilçilik sahəsində yeni kadrların hazırlanması nəzəri əsasların, tətbiqi bacarıqların, fənlərarası biliklərin və peşə yönümlülüyün uzlaşdırılmasını tələb edən mürəkkəb bir prosesdir. Dilçi kadrların hazırlanmasında ənənəvi problem nəzəri və tətbiqi istiqamətlərin balanslaşdırılması ilə bağlıdır.Bu problem professor S.Q.Həsənovanın həmişə diqqətində olmuş və problemin aradan qaldırılmasına səy göstərmişdir. Məqalədə professor Sədaqət Həsənovanın elmi kadrların hazırlanmasındakı fəaliyyəti araşdırılmışdır.
**Açar sözlər:**
*elmi kadr hazırlığı ,Sədaqət Həsənova, Cavid Babayev, Nicat Yaqubov, üslubiyyat*

## Giriş

Yeni dilçilərin hazırlanmasında əsas problemlərdən biri nəzəri biliklərin praktiki bacarıqlarla uzlaşdırılmasıdır. Fundamental dilçilik nəzəriyyəsini tətbiq bacarıqları ilə necə birləşdirmək məsələsi hələ də həllini tapmamışdır. Ona görə də dilcilik elmi üzrə kadrların hazırlanması çox sayda problemlərin həllinə kömək edir

Son onilliklərdə dilcilik elminin bəzi sahələrinin inkişafı onlarla bağlı tədqiqatları zəruriləşdirir. Lakin kadr hazırlığı prosesi bir sıra çətinliklərlə üzləşir. Məsələn, təhsil standartlarının müasir tələblərə uyğunlaşdırılması, metodoloji bazanın təkmilləşdirilməsi, peşə yönümlülük məsələsi və nəzəriyyə ilə təcrübənin səmərəli bağlılığı xüsusi aktuallıq kəsb edir.

## Tədqiqat

Dilçi kadrların hazırlanmasında ənənəvi problem nəzəri və tətbiqi istiqamətlərin balanslaşdırılması ilə bağlıdır. Belə ki, dilcilik elmində bəzən eyni mövzu ətrafında araşdırmalar sayca çoxalır, lakin az işlənən və ya işlənməyən sahələrə müraciətdə boşluq özünü göstərir. Bu problem professor S.Q.Həsənovanın həmişə diqqətində olmuş və problemin aradan qaldırılmasına səy göstərmişdir. Belə ki, o, dissertant və doktorantlarına mövzu verərkən həmin problemin həllini ön plana çəkmişdir. Məsələn, Azərbaycan dilçiliyində köhnəlmiş sözlərlə bağlı aparılan araşdırmalarda

[1] Asgarova, G. PhD in Philology, Associate Professor, Nakhchivan State University, Nakhchivan, Azerbaijan. Email: asgerovaganira@gmail.com. ORCID: https://orcid.org/0009-0005-7756-8029.

onların üslub imkanlarına toxunulmamışdır. Ona görə də S.Həsənova dissertantı Nicat Yaqubova “Azərbaycan dilində arxaizmlərin leksik- semantik xüsusiyyətləri” adlı elmi işi verərkən onun bir fəslinin uslub məsələləribnə həsr olunmasını məsləhət görmüşdür. Dissertasiya həmin aspektdə hazırlanmışdır

Yaqubov Nicatın dissertasiyasında Azərbaycan dilində köhnəlmiş sözlərin əsas cəhətləri, Azərbaycan dilçilik elmində arxaizmlərə elmi-nəzəri baxış, arxaizmlərin dildə yeri, leksik vahidlərin inkişafında yenilik, ümumişləkilk və köhnəlmə prosesi, sözlərin işlənmə tezliyinin zəifləməsinə səbəb olan amillər haqqında elmi-nəzəri təhlillər aparılmış, Azərbaycan dilində arxaizm və tarixizmlərin leksik-semantik xüsusiyyətləri müəyyənləşdirilmişdir. Dissertasiyada arxaizm və tarixizmlərin bədii dil əsasında araşdırılması maraqlı faktlardan biri kimi diqqəti cəlb edir. Dilin aktiv leksikasını tərk edən sözlərin funksional cəhətləri aydınlaşdırılır, bədii əsərlərdə işlənmə zəruriliyi əsaslandırılır.Bədii dildə arxaizmlərin üslub imkanları incələnmişdir.Müəllif klassik ədəbiyyatdan çağdaş ədəbiyyatımıza qədərki dövrdə köhnəlmiş sözləri müəyyənləşdirmiş,işlənmə dərəcəsinin,ədəbi dildə bu sözlərin işlənmə məqamlarını tədqiq və təhlil etmişdir.Müəllif bəzən arxaik sözlərin yenidən işlənməsinə diqqət çəkmişdir. “Yaradıcılıq üslubunun bilavasitə təsiri ilə işləklikdən düşmüş söz şair yazıçı tərəfindən bədii dilə yenidən gətirilir.(6,s.26) Bundan başqa, leksik vahidlərdə məna keçidi məsələsi haqqında maraqlı fikirlər irəli sürülür. Müəllif arxaizmlərin və tarixizmlərin səciyyəvi cəhətlərini, bədii əsərdə işlənmə xüsusiyyətlərini əsas məqsəd kimi qarşıya qoyur.

Müasir dilçilik getdikcə fənlərarası xarakter alır. Bu, həm tədqiqat metodlarının zənginləşməsi, həm də praktik fəaliyyət sahələrinin genişlənməsi ilə bağlıdır. Dilçi kadrın yalnız filoloji biliklərlə məhdudlaşması müasir tələblərə cavab vermir. Onun statistik metodlara, məlumat bazaları ilə işləmək bacarığına, proqramlaşdırma əsaslarına, psixolinqvistik və kognitiv nəzəriyyələrə bələd olması mühüm şərtlərdən biridir.

S.Həsənovanın xidmətlərindən biri üslubiyyat sahəsində kardların hazırlanmasına diqqət etməsidir. Onun Azərbaycan Texniki Universitetinin müəllimi Abdullabəyova Pərvin Yaqub qızına “Bədii dildə rənglərin leksik-semantik xüsusiyyətləri” adlı dissertasiya yazmağı təklif etməsi alimin uğurlarından biri kimi dəyərləndirilməyə layiqdir. Əvvəla, ona görə ki, rənglər mövzusu Azərbaycan dilçiliyində o vaxta qədər işlənməmişdir. İkinci, bədii dildə rənglərin çox sayda üslub imkanlarını olduğunu düşünən alim bu addımı atmaqla dissertantın mövzu üzrə yeni və orijinal dil-üslub faktlarını ortaya çıxarması üçün köməyini əsirgəmədi.

Bəzən diqqətdən kənarda qalsa da, qədim zamanlardan bəri bütün dünyada rənglər insan həyatının mənası kimi başa düşülüb. Halbuki rənglər insanın həyat və psixologiyasına güclü şəkildə təsir edən faktorlardan biridir. S.Həsənova dissertantı öyrədirdi ki, rənglər təbiətin, geyimin, mənzillərin bəzəyi olmaqdan başqa, bədii dilimizin də keyfiyyətlərindən biridir. İnsanın dilində rənglərlə bağlı çox sayda söz və ifadələr, bədii dildə isə onların müxtəlif üslub çalarları mövcuddur. O, dəfələrlə rənglərlə ifadə etmənin yollarını vurğulayırdı ki, Azərbaycan ədəbi-bədii dilində rənglər semantik bolluğu və üslub imkanlarının genişliyi ilə diqqəti çəkir. Lakin indiyə qədər

rənglərə linqvistik baxımdan sistemli şəkildə yanaşılmamış və onlar bu mövqedən yetərincə dəyərləndirilməmişdir. Halbuki bu elmdə rənglərin funksiyası, bəlkə də, digər elmlərdə (rəssamlıq, memarlıq, rəngkarlıq, fizika və s.) olduğundan daha çoxdur. Folklor örnəklərindən tutmuş, son yazılı ədəbiyyat örnəklərinə qədər ədəbi dilimizdə rənglərin anlamlarından bacarıqla istifadə edilsə də, elmi baxımdan onlara yanaşmanın təzahürlərini yetərincə müşahidə edə bilməmişik. S.Həsənova tez-tez dissertanta deyirdi ki, təkcə Nizami Gəncəvinin "Yeddi gözəl" poeması və xalq şairi Rəsul Rzanın "Rənglər" silsiləsi bəsdir ki, Azərbaycanda rənglərin linqvistik imkanlarına qapı açılsın. Bütün tapşırıq və məsləhətlərdən sonra, nəhayət, rənglərlə bağlı gözəl bir araşdırma ortaya qoyuldu. Dissertasiyada Azərbaycan bədii dil və təfəkküründə rəng məsələsi, Azərbaycan folklorunun dilində rənglərin yeri və rolu, Azərbaycan aşıq ədəbiyyatının dilində rənglərin üslub imkanları, bədii dildə ağ, qara və qırmızı rənglərin üslub özəllikləri, bədii dildə yaşıl, sarı və göy rənglərin semantik imkanları, işlənmə məqamları məsələləri işıqlandırılmışdır. Tədqiqatçı belə qənaətə gəlmişdir: " Xalqımızın qədim zamanlardan indiyə qədə inanç,folklore və yazılı örnəklərdə rənglərdən istifadə edərək onların maddiyyatından çox,bədii dildə mənəvi mövqeyini təyin etmiş, düşüncələrinin təzahür formasına çevirmiş,adilikdən çıxarıb mənəvi keyfiyyət qazandırmış,hiss və davranışlarını rənglərlə ifadə etmənin yollarini tapmişdir.(1,s. 27)

Peşəkar dilçinin əsas keyfiyyətlərindən biri çoxdillilikdir. Dilçi yalnız ana dilini deyil, ən azı bir xarici dili yüksək səviyyədə bilməli, həmçinin dillərin tipoloji müxtəlifliyi haqqında nəzəri biliklərə sahib olmalıdır Bu, həm müqayisəli tədqiqatların aparılması, həm də beynəlxalq əməkdaşlıq baxımından vacibdir.Lakin bəzi təhsil proqramlarında xarici dil tələblərinin məhdud olması məzunların beynəlxalq elmi mühitdə fəaliyyət imkanlarını zəiflədir. Buna görə də dilçi kadr hazırlığında çoxdilliliyə xüsusi diqqət yetirilməlidir. Bu mənada, Babayev Cavid Sabir oğlu prof. S.Q.Həsənovanın rəhbərliyi ilə "Azərbaycan və ingilis dillərində bədii üslub vasitələrinin müqayisəli-linqvistik təhlili" (Azərbaycan və ingilis dillərinin materiallari əsasında) mövzusunda dissertasiya işini yazmış Azərbaycan və ingilis dillərində bədii üslub vasitələrinin elmi şəkildə araşdırmış bu vasitələrin hər iki dildə oxşar və fərqli cəhətlərini müəyyənləşdirmişdir.T ədqiqatçəı bələ bir elmi müddəa irəli sürmüşdür :"Araşdırma təsdiq edir ki, ingilis və Azərbaycan dillərində ən çox eyni adı daşıyan üslub vasitələri işlənmişdir( 3,s.24).Tədqiqatçı müdafiə edərək dilçi kadr kimi yetişdirildi. Tədqiqatın adından göründüyü kimi alim yenə də üslub məsələlərini önə çəkirdi.

Hər bir elmi sahənin inkişafında aktual mövzuların seçilməsi xüsusi əhəmiyyət daşıyır. Məsələn, milli-mədəni yaddaşın qorunmasında onomastika və frazeologiyanın, ədəbi norma və üslubi müxtəlifliyin aktuallaşdırılmasında nitq mədəniyyəti və üslubiyyatın, mənəvi irsin qorunmasında müxtəlif alimlərin elmi yaradıcılığının araşdırılması aktualdır. Sözügedən aktual mövzular üzrə aparılan araşdırmalar dilin mahiyyətinə daha dərindən nüfuz etməyə, onun insan təfəkkürü və mədəniyyəti ilə qarşılıqlı əlaqəsini açmağa, Azərbaycan dilçiliyində xüsusi rolu olan, lakin indiyə qədər elmi araşdırmaya cəlb edilməyən alimlərimiz haqqında məlumatı genişləndirməyə imkan verir. Bu mənada, S.Q.Həsənovanın dissertantlarından birinə "Professor Musa Adilovun linqvistik araşdırmaları və Azərbaycan dilçiliyinin aktual problemləri" adlı mövzunu məsləhət görməsi yerinə düşür. Musa Adilov Azərbaycan dilçiliyiondə xüsusi imzası olan, heç kəsin ağlına gəlməyən

mövzuları işıqlandıran, aktual məsələlərə toxunan, yazdıqları haqqında mükəmməl mülahizələri ilə diqqəti cəlb edən, lakin diqqətdən kənarda qalan alimlərimizdəndir. Onun dəyərini anlayan S.Həsənova alimin elmi irsinin araşdırmaya layiq olduğunu əsaslandırdı. Bu, dövrümüzün dilcilik elmi sahəsində çox aktual məsələlərindən biridir. Aktual tədqiqatlar yalnız elmi müstəvidə deyil, həm də cəmiyyətin mədəni inkişafında mühüm rol oynayır. Dilin çağdaş problemlərinin öyrənilməsi milli kimliyin qorunmasına, mədəni irsin gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Prof. S.Q.Həsənovanı cəlb edən mövzulardan biri də hərbi sözlərdir. Hərbi leksika üslubi zənginlik və dramatik effekt yaradaraq bədii dilin ritmini və dramatikliyini artırır. Qısa və konkret hərbi ifadələr gərginliyi yüksəldir, döyüş səhnələrinin tempini sürətləndirir və mətni daha təsirli edir. Bundan başqa, hərbi leksika simvolik və ideoloji yükə malikdir. Hərbi leksikadan xalqın qəhrəmanlıq tarixini, vətənpərvərlik və mübarizə ideallarını çatdırmaq üçün istifadə olunur. Bu sözlər milli yaddaşı gücləndirir və oxucuda tarixi və mənəvi dəyərlərə hörmət hissi oyadır. Azərbaycan ədəbi-bədii dilində hərbi leksikadan mətni həm estetik, həm də ideoloji baxımdan zənginləşdirməkdə, milli və tarixi dəyərlərin çatdırılmasında istifadə olunur. Beləliklə, hərbi leksika bədii dilin ifadə imkanlarını artıran və əsərin ideya məzmununu gücləndirən əvəzsiz vasitədir. Bunu nəzərə alaraq S.Q.Həsənova dissertantı Elnarə Cavadovaya “Azərbaycan dilində hərbi leksikanin inkişaf xüsusiyyətləri” adlı dissertasiya üzərində işləməyi məsləhət görmüşdür. Dissertasiyada hərbi sözlər Azərbaycan leksikasının bir bölməsi kimi dəyərləndirilmiş, Azərbaycanda hərbi sözlərin yaranma tarixi və mənbələr, Azərbaycanda hərbi leksikanın əsas xüsusiyyətləri, bəzi hərbi terminlərin etimoloji cəhətləri araşdırılmışdır. Bundan başqa, Azərbaycanda hərbi leksikanın tarixi inkişafı izlənmiş, qədim və orta dövrlərin hərbi leksikası tədqiq olunmuş, Azərbaycan ədəbi dilinin yeni və ən yeni dövründə hərbi sözlərin əsas xüsusiyyətləri müəyyənləşdirilmişdir. Araşdırmada XX yüzilə qədər Azərbaycan ədəbi-bədii dilindəki hərbi sözlərin leksik-qrammatik (morfoloji və sintaktik) xüsusiyyətləri, Azərbaycan dilində hərbi terminlərin mənşəyi və semantik qrupları, çağdaş ədəbi dilimizdə hərbi sözlərin üslubi imkanlarım məsələləri ayrı-ayrı paraqraflarda işıqlandırılmışdır. Bu mövzunun işlənmə zəruriliyini dissertant belə izah edir: Qeyd edək ki, bu yaxınlara qədər dilçilər, əsasən, hərbi leksikanın ayrı- ayrı xüsusiyyətlərinin araşdırılmasına diqqət yönəltmişlər.

İndiyə qədər hərbi məzmun daşıyan sözlərlərlə bağlı bir sıra fikirlər söylənsə də, onların leksik-semantik təhlili, hərbi leksikanın tarixi köklərinin müəyyənləşdirilməsi və müqayisəli elmi-nəzəri təhlili yetərli deyil. Azərbaycanda hərbi leksikanın inkişaf xüsusiyyətlərinin öyrənilməsinə, bu mövzuya yeni prizmadan yanaşılmasına ehtiyac vardır. Dilin bu və ya digər dövründə hərbi sözlərin təşəkkülü, formalaşması və inkişafı hadisəsi haqqında yuxarıda qeyd edilən araşdırmalar kifayət qədər deyil. Dilin leksik sisteminin müxtəlif layları kimi hərbi leksika da dayanmadan inkişaf edir. Bu mənada, onun araşdırılması məqsədəuyğundur. Bu məsələləri nəzərə alan dissertant maraqlı və aktual bir tədqiqatı yekunlaşdırmışdır.

Müasir dövrdə yeni söz və ifadə yaradıcılığı, fərdi üslub özəllikləri, üslub normalarının dəyişkənliyi, ayrı-ayrı söz ustalarının dil-üslub xüsusiyyətləri üslubiyyat araşdırmalarının diqqət mərkəzində dayanır. Ona görə də S.Həsənova yeni dissertantlarından olan Röya

Əliyevanın“Azərbaycan ədəbi dilində söz-ifadə yaradıcılığı məsələləri” adlı mövzuda tədqiqat aparmasına köməklik göstərir.Tədqiqatçının bu mövzu ilə bağlı bir çox konfrans materiallarında (2), xarici jurnallarda məqaləsi çap olunmuşdur (1).

S.Q.Həsənovanın dissertantı Qasımova İradə Əsrafil qızı “Azərbaycan və fransiz dillərində sadə cümləni genişləndirən vasitələr” adlı dissertasiyasını yekunlaşdıraraq müzakirədən keçmişdir. Dissertasiyada Azərbaycanda ilk dəfə olaraq Azərbaycan və fransız dillərində sadə cümlədə genişlənmənin mahiyyəti, bu dillərdə sadə cümlə növlərinin genişlənmə məsələsi, müəyyən şəxsli və qeyri-müəyyən şəxsli, ümumi şəxsli, şəxssiz sadə cümlələrin, adlıq cümlənin, üzvlənməyən cümlənin genişlənməsi, Azərbaycan və fransiz dillərində sadə cümləni genişləndirən sintaktik vasitələr, sadə cümlənin ikinci dərəcəli üzvlər (təyin, tamamlıq, zərflik), həmcins üzvlər, mürəkkəb üzvlər (tərkiblər) vasitəsilə genişlənməsi məsələlərinə aydınlıq gətirilmişdir. Azərbaycan və fransız dilləri üzərindəki araşdırmalar göstərir ki, hər iki dildə cümlənin məqsəd və intonasiyaya görə bütün növləri genişlənmə baxımından müəyyən imkanlara malikdir. “Təhlillər təsdiq edir ki, genişlənmə prosesində ilkin cümlə yeni şəkillərdə meydana çıxan cümlələrin fundamentini təşkil edir. Bu proses cümləni təşkil edən üzvlərin say baxımından çoxalması ilə nəticələnir. Genişlənmə nəticəsində çoxalan üzvlər iki cür olur: 1. Cümlədə müəyyən sintaktik mövqe tuta bilən sözlər. 2. Cümlədə müəyyən sintaktik mövqe tuta bilməyən sözlər (4,s148)

Dissertasiyanın maraqlı fəsillərindən biri „Sadə cümlənin cümlə üzvü olmayan sintaktik vasitələrlə genişlənməsi“ probleminə həsr edilmişdir. Azərbaycan və fransız dillərində sadə cümlənin əlavələrlə, əlavə sözlər, ara sözlər, sözönülər, inkarlıq əlaməti, bağlayıcılar vasitəsilə genişlənməsi məsələləri müəyyənləşdirilmişdir.

S.Q.Həsənova filologiya üzrə fəlsəfə doktoru Cəfərova Fəxriyyə İbrahim qızının eımi məsləhətçisidir. Filologiya elmləri doktoru iddiası ilə “Azərbaycan aşıq poeziyasının dil-üslub xüsusiyyətləri” mövzusunda araşdırma aparan doktorant elmi məsləhətçinin tapşırıqlarını yerinə yetirərək maraqlı bir təqqiqatı yekunlaşdırır

**Nəticə**

Araşdırma göstərir ki, yeni dilçilərin hazırlanması cəmiyyətin ünsiyyət boşluqlarını aradan qaldıra bilən və qarşılıqlı anlaşmanı inkişaf etdirən mütəxəssislərlə təmin olunmasına zəmanət verir.

**Ədəbiyyat**

Abdullabəyova, P. (2022). *Bədii dildə rənglərin üslub imkanları* [Avtoreferat, Filologiya üzrə fəlsəfə doktoru]. Qeyrət nəşri.

Babayev, C. (2024). *Azərbaycan və ingilis dillərində bədii üslub vasitələrinin müqayisəli-linqvistik tədqiqi* [Avtoreferat, Filologiya üzrə fəlsəfə doktoru]. Naxçıvan.

Babazadə, Z. (2025). *The first influences of western literature on Azerbaijan literature: Modernism and tradition in the works of Akhundzadeh*. *Acta Globalis Humanitatis et Linguarum, 2*(1).

Babazadə, Z., & Qənbərov, M. (2025). *Specific aspects of the motif of immortality in literature. Acta Globalis Humanitatis et Linguarum, 2*(2), 215–222.

Cabbarova, S. R. (2025). *Məktəbəqədər yaşlı uşaqların intellektual hazırlığı və inkişafı. Global Spectrum of Research and Humanities, 2*(4), 48–58.

Əliyeva, R. (2023). *Aşıq Ələsgərin dili və söz-ifadə yaradıcılığı. "Qərbi Azərbaycana qayıdış" mövzusunda festival-konqresin materialları* (23–34 noyabr 2023). Naxçıvan: Azərbaycan Respublikası Prezidentinin Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcması.

Əliyeva, R. (2024). *Word formation process through metaphorization in modern Azerbaijani artistic language. Baltic Journal of Legal and Social Sciences*, (ISSN 2592-8813), 240–246. Riga: Baltijas Starptautiska Akademija.

Hashimov, A., & Abuzerli, A. (2025). *The restoration of archetypal memory in Yusif Samedoğlu's "The Day of Murder": A psychoanalytic and symbolic interpretation. Global Spectrum of Research and Humanities, 2*(5), 60–66.

Mustafayeva, N. (2017). XIX əsr Azərbaycan ədəbiyyatında tarixi-vətənpərvərlik mövzulu müxəmməslər. *Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi*, 123-131.

Qasımova, İ. (2018). Sadə cümlədə genişlənmənin əhəmiyyəti. *Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri*, (5[94]), 146–149.

Quliyeva, S., & Babazadə, Z. (2025). *Müasir qlobal kontekstdə Azərbaycan ədəbiyyatının inkişafı və beynəlxalq ədəbi təsirlər: təsirləri formalaşdıran amillər. Journal of Azerbaijan Language and Education Studies, 2*(3), 184–189.

Yaqubov, N. (2021). *Azərbaycan dilində arxaizmlərin leksik-semantik xüsusiyyətləri* [Avtoreferat, Filologiya üzrə fəlsəfə doktoru]. Qeyrət nəşri.

Received: 10.09.2025
Revised: 18.09.2025
Accepted: 20.10.2025
Published: 26.10.2025